**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# FRANSANIN CƏNUBİ QAFQAZDA GEOSİYASİ MARAQLARI

İxtisas: 5901.01- "Beynəlxalq münasibətlər"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Şəfəq Fərman qızı Mustafayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın
**AVTOREFERATI**

**BAKI - 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun “Müasir siyasətin fəlsəfəsi” şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Samir Sabir oğlu Həmidov**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, professor
**Hadi Musa oğlu Rəcəbli**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Afət Ağabala qızı Güləliyeva**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Ləman Zahid qızı Qarayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, professor əvəzi
**Ziyafət Ziya qızı Həbibova**

Elmi seminarın sədri: Siyasi elmlər doktoru, professor əvəzi
**Adil Mirabdulla oğlu Mirabdullayev**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin olunması regionda müstəqil dövlətlərin yaranmasından sonra, yəni son 30 ildə ən aktual və həyati vacib beynəlxalq problemlərdən biri kimi elmi və siyasi maraq kəsb edir. Xüsusilə dünyanın aparıcı dövlətlərindən biri olan və bölgədə gedən proseslərdə əhəmiyyətli rol oynaya bilən Fransanın regionda geosiyasi maraqları və bu dövlətin regional sülhə və əməkdaşlığa təsir imkanlarının elmi cəhətdən öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Yəni Fransanın Cənubi Qafqazda geosiyasi maraqlarının öyrənilməsi ciddi elmi və siyasi əsaslara malikdir. Bu amilləri aşağıdakı kimi qruplaşdıra bilərik.

*Birincisi,* Fransa dünyanın aparıcı dövlətlərindən biri kimi beynəlxalq münasibətlərdə fəal rol oynayır. Belə ki, BMT Təhlükəsizlik Şurasının daimi üzvi olan, Avropa İttifaqı, NATO kimi güclü beynəlxalq strukturların nüfuzlu üzvü kimi Fransa dünyanın demək olar ki, bütün regionlarında həlledici təsir imkanlarına malikdir. Xüsusilə Avropa məkanında Fransanın iştirakı və rolu olmadan hər hansı vacib siyasi və ya geosiyasi problemin həlli mümkün deyil.

*İkincisi,* Fransanın Cənubi Qafqazda uzunmüddətli maraqları XX əsrin əvvəllərində formalaşmağa başlamışdır. Rusiya imperiyasının dağılmasından sonra Cənubi Qafqazda üç müstəqil dövlətin – Azərbaycan, Gürcüstan, Ermənistan, yaranması və beynəlxalq münasibətlərin subyekti kimi siyasi proseslərin fəal iştirakçısına çevrilmələri, regionu geosiyasi rəqabətin obyektinə çevirdi. Fransanın Cənubi Qafqaza münasibətdə maraqları məhz bu dövrdə yarandı və bu maraqların əsasında ilkin olaraq geosiyasi faktorlar, Cənubi Qafqazın-Azərbaycanın neft yataqları dururdu. *Üçüncüsü*, Fransanın Cənubi Qafqaz regionuna münasibətdə siyasi maraqlarının formalaşmasının yeni mərhələsi XX əsrin 90-cı illərinə təsadüf edir. Sovetlər Birliyinin dağılmasında sonra region ölkələrinin öz müstəqilliklərini bərpa etməsi və bütövlükdə beynəlxalq münasibətlər sisteminin inkişafının yeni mərhələsi Fransanın Cənubi Qafqazla münasibətlərinin sistemli və davamlı inkişafı üçün əsaslar yaratdı.

*Dördüncüsü,* Cənubi Qafqazda mövcud olan münaqişələr və böyük dövlətlərarası rəqabət regionun geosiyasi əhəmiyyətini artırmış-

dır. Ermənistanın Azərbaycan təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsi, Gürcüstan daxilində yaranmış Abxaziya və Cənubi Osetiya münaqişələri, habelə Cənubi Osetiya üstündə Rusiya-Gürcüstan münaqişəsi regionda vahid təhlükəsizlik sisteminin yaranmasını mümkünsüz etmişdir. Regionda vahid təhlükəsizlik sistemini çətinləşdirən digər amil Azərbaycanın, Ermənistanın və Gürcüstanın fərqli təhlükəsizlik prioritetlərinə malik olmalarıdır. Fransa az saylı dövlətlərdəndir ki, region ölklərinin hamsı ilə inkişaf etmiş münasibətlərə malikdir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, Fransanın Cənubi Qafqaz dövlətlərinin hər biriylə fərqli maraqlar müstəvisində münasibətlərini inkişaf etdirməsi və vahid, inteqrasiya olunmuş Cənubi Qafqaz siyasətinin olmaması, həm də Cənubi Qafqaz dövlətləri arasında sülhün və qarşılıqlı hörmət prinsipinə əsaslanan vahid əməkdaşlıq platformasının tam mövcud olmamasından irəli gəlir.

*Beşincisi,* Fransanın böyük erməni diasporasına malik olması və ermənilərlə tarixi-mənəvi yaxınlığı onun Ermənistanla münasibətlərini fərqli müstəviyə yüksəldir və eyni zamanda münaqişənin tam siyasi həllində təcavüzkar ölkəyə təsir göstərməsi üçün böyük imkanlar yaradır. Fransanın Gürcüstan və Rusiya ilə olan tarixi-siyasi yaxınlığı Gürcüstan daxili münaqişələrin həllində də, onun pozitiv rol oynamasını şərtləndirir. Sadalanan amillər Fransanın Cənubi Qafqazda geosiyasi maraqlarının öyrənilməsini siyasi baxımdan vacib edir.

*Altıncısı,* Fransanın Avropa İttifaqının qurucu və aparıcı üzvü kimi Cənubi Qafqaz ölkələri arasında sülhün yaradılmasında və təhlükəsizliyin təmin olunmasında müstəsna rol oynaya bilər. Bu baxımdan Fransanın beynəlxalq hüquqa əsaslanan və konstruktiv yanaşma irəli sürməsi regionun Aİ-yə inteqrasiyasını sürətləndirə bilər. Buna görə Fransanın Aİ çərçivəsində Cənubi Qafqaz siyasətinin öyrənilməsi mühüm elmi və siyasi əhəmiyyət kəsb edir.

*Yeddinci,* 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda formalaşan yeni format Fransanın regiona siyasi təsir rıçaqlarının konfiqurasiyasında dəyişikliyə səbəb oldu. Cənubi Qafqaz regionuna münasibətdə geosiyasi maraqlarında dəyişikliyin əsasında müharibədən sonra daha da aktuallaşan türk dünyasını birləşdirən Çinin "Bir kəmər, bir yol" lahiyəsinin türk dövlətlərinin nəzarətində olması, regionun keçid kimi mövqeyinin artması və onun

Türkəfobiya siyasəti Fransanın Cənubi Qafqazda geosiyasi maraqlarının öyrənilməsini vacib edir.

Problemin araşdırılması zamanı istifadə olunmuş elmi əsərləri dil prinsipi üzrə dörd qruplara bölə bilərik:

1) Fransız dilli əsərlər
2) İngilis dilli əsərlər
3) Rus dilli əsərlər
4) Azərbaycan/türk dilində olan əsərlər

Qeyd edək ki, bu bölgü yalnız formal fərqlərə görə aparılmır, həm də problemin öyrənilmə tərzini, problemin bu və ya digər aspektlərinə yanaşmaları özündə əks etdirir.

Birinci qrup, C.Christophe, S.Yerasimos, F. Xavier, F. Mardirossian, A.Jafalian[1] və d., fransız dilli araşdırmalarda təzadlı yanaşmaları aşkar müşahidə etmək olur. Belə ki, fransız müəllifləri bir tərəfdən regionda Azərbaycanın enerji daşıyıcıları siyasətinin vacibliyini qeyd edirlər və bu siyasətin regionda inkişafa xidmət etdiyini şərh edirlər, digər tərəfdən Ermənistanın işğalçılıq və beynəlxalq hüququn qəbul olunmuş prinsiplərini pozması siyasətinin üstündən sükutla keçərək Azərbaycanın Ermənistanı təcrid etmə və təzyiq etmə fəaliyyəti üzərində diqqəti cəmləşdirirlər və beləliklə də, bu siyasəti regionda sülhün yaranmasına maneə kimi təqdim etməyə cəhd göstərirlər. Gürcüstan daxili münaqişələrə gəldikdə isə, fransız alimləri birmənalı şəkildə Rusiyanı günahkar və təcavüzkar kimi təqdim etməyə, Fransanın xarici siyasətini və geosiyasi fəallığını isə qeyri-ardıcıl və səmərəsiz hesab etməyə meyillidirlər. Göründüyü kimi fransız alimlərinin yanaşmasındakı ziddiyyətlilik Fransa dövlətinin regiona yönəlmiş xarici siyasətində də özünü göstərir. Digər bir məqam ondan ibarətdir ki, fransız tədqiqatçılar daha çox Ermənistan və Gürcüstanla münasibətlərin öyrənilməsinə üstünlük verirlər ki, bu

[1] *Christophe C., "Le conflit Russo-Georgien", Confluences Méditerranée, 2008/4 N°67, p. 111-115., Yerasimos Stéphane, "Caucase : le retour de la Russie ", Politique étrangère 1994 p. 61-86., Xavier, Follebouckt, "Les conflits gelés de l'espace postsoviétique : Genèse et enjeux ", Presses universitaires de Louvain 2012, p. 271., Mardirossian F., "Géopolitique du Sud-Caucase : risques d'exacerbation des rivalités aux confins de la Géorgie, de la Turquie et de l'Arménie , Outre-Terre 2007/2 (n° 19), p. 283-302., Jafalian Annie, "LE CAUCASE DU SUD ET L'UNION EUROPEENNE : VERS UNE COOPERATION RENFORCEE ?", Annuaire français de relations internationales, 2005, vol. 6, pp. 398-409*

da regionun bir coğrafi -siyasi vahid olaraq araşdırılmasına və başa düşülməsinə imkan vermir. Bundan əlavə, fransız müəlliflərinin əsərlərində regiona yanaşmada xristian təəsübkeşliyi və ermənipərəst baxışlar üstünlük təşkil edir. Fransada çoxsaylı erməni icmasının yaşaması və onların fransa cəmiyyətinə önəmli təsiri regionun öyrənilməsi istiqamətində aparılan araşdırmalardan da yan keçməmişdir.

İkinci qrup, ingilis dilli alimlərin M.Oksun, M.Margaretin, E. Painin[2] əsərlərində Fransanın mövqeyi ümumiyyətlə nəzərdən keçirilmir, əsas diqqət problemin nəzəri aspektlərinə və Rusiyanın siyasətinin araşdırılmasına yönəlmişdir. Bəzi müəlliflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini daxili münaqişə kimi göstərməyə cəhd edirlər ki, bu yanaşma ingilis dilli əsərlərdə tez tez rast gəlinir.

Üçüncü qrup, rus alimlərin – R.Muxaev, N.Nartov, İ.Pirojnik, S.Jilçov, İM.Jeltov, A.Duqin, K.Qadjiev[3] əsərlərində Fransa geosiyasi məktəbi, geosiyasi nəzəriyyələri, milli maraqların formalaşması və digər geosiyasi ideyaların tarixi-siyasi təkamül prosesinə dair demək olar ki, bir birinə çox oxşar olan izahlar və şərhlər verilmişdir. Bu əsərlərdə Cənubi Qafqazda müasir Fransa-Rusiya geosiyasi rəqabəti haqqında heç bir təhlil aparılmır. Əsas diqqət ABŞ-Rusiya-Aİ, habelə dünyanın digər geosiyasi regionlarındakı rəqabət prosesinə ayrılmıdı. Lakin qeyd edilən əsərlərdə klassik fransız geosiyasətçiləri olan Blaş, Ansel, Demanjonun əsərlərindəki nəzəri yanaşmalar ətraflı təhlil edilmişdir. Məhz bu araşdırmaların öyrənilməsi əsasında Fransa siyasi istebleşmentinin regionlara baxışı, dünya siyasətinə yanaşması və əsas

---

[2] *Ochs, M., "Azerbaijan: Oil, Domestic Stability and Geopolitics in the Caucasus" , Caucasus and the Caspian Seminar Transcripts, SDI, 1996 //https://www.belfercenter.org/publication/azerbaijan-oil-domestic-stability-and-geopolitics-caucasus,, Margaret M. Introduction: The Self-Determination Principle and the Ethics of Secession, Oxford, Oxford University, 1998, p.277 / ., Pain E.A. Contagious Ethnic conflicts and Border Disputes along Russia's Southern- Flank. / Russuia,the Caucasus and Central Asia,London and New York, 1999/2015, p.177-205*

[3] *Мухаев Р. Т. Геополитика. Москва.: ЮНИТИ – ДАНА, 2010,623 с, Нартов Н. А. Геополитика. Учебник. М. : ЮНИТИ, 2007, 544 с.,Пирожник И. И.Геополитика в современном мире. Минск, «ТетраСистемс», 2008, 272 с.,, Жильцов С.С., Зонн И.С., Ушков А.М. Геополитика Каспийского региона. М.: Междунар. отношения, 2003, 280 с.,Желтов М.В. Геополитика мирового порядка.монография.М.,Флинта, 2014, 1302 стр., Дугин А. Основы геополитики. Геополитическое будущее России. Мыслить пространством. М.: 2000, «АРКТОГЕЯ-центр», 928 с, Гаджиев К.С. Геополитика Кавказа. М.: Международные отношения, 2003, 464 с.*

götürdüyü dəyərlər haqqında biliklər əldə edilmiş və onların əsasında müasir Fransanın Cənubi Qafqaz siyasətinin təhlil edilməsində istifadə olunmuşdur.

Dördüncü qrup, Azərbaycan/türk dilində mövzu ilə bağlı araşdırma aparan alimlərin əsərlərində daha obyektiv elmi yanaşmaları və təhlilləri görmək olar. Xüsusilə Ə.Həsənovun[4] və N.Məmmədovun[5] əsərlərində Fransa geosiyasət məktəbi dərindən öyrənilmişdir. Bu əsərlərdə fransız geosiyasi ideyaları öz əksini tapsa da, bu baxışlar Qafqaz regionuna tətbiq edilməmişdir. Bu ideyaların Cənubi Qafqaza, xüsusilə Azərbaycana tətbiqi baxımından mövzunun araşdırılması təqdim olunan dissertasiya işinin əhəmiyyətini göstərir.

Fransa ilə Azərbaycan arasında mədəni, ədəbi əlaqələrin tarixinin öyrənilməsində R. İsmayılovun[6] araşdırması əhəmiyyətlidir. Araşdırmada iki ölkə arasında XIX əsrdə mövcud olan mədəni əlaqələrdən bəhs olunmuş, Azərbaycanlı ziyalıların Fransada təhsil alması, bir sıra mütəfəkkirlərin əsərlərinin fransız dilinə tərcümə edilməsi, fransız tədqiqatçılarının Azərbaycanın klassiklərini tədqiq etməsi və digər məsələlər öz əksini tapmışdır.

AXC dövründə Azərbaycan nümayəndə heyətinin Paris sülh konfarnsında iştirakı, Azərbaycanın müstəqilliyinə Avropa dövlətlərinin münasibəti İ.Musayevin əsərlərində[7] tədqiq olunmuşdur. Lakin bu dövrdə Fransanın Cənubi Qafqazda geosiyasi maraqları hələ tam formalaşmadığı üçün bu problem ayrıca tədqiqat obyekti olmamış, ümumi beynəlxalq münasibətlər aspektindən yanaşma ifadə olunmuşdur. Bununla yanaşı Fransanın Cənubi Qafqazla münasibətlərinin tarixi aspektlərinin öyrənilməsi baxımından bu əsərlər əhəmiyyətlidir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə Fransanın münasibəti, erməni diasporasının bu ölkədə fəaliyyəti və Fransa xarici siyasətinə təsiri problemi türk dilli elmi araşdırmalarda

---

[4] *Həsənov Ə.M. Geosiyasət. Dərslik. Bakı: "Aypara", 2010, 604 s., Məmmədov N. Geosiyasətə giriş: 2 cilddə, I c., Bakı: "Azərbaycan" nəşriyyatı, 2011, 576 s.; II c., Bakı: "Azərbaycan" nəşriyyatı, 2011, 416 s.*

[5] *Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun nəşriyyatı, 2013, 264 s.*

[6] *İsmayılov, R. "Dostluq telləri" (Fransa-Azərbaycan ədəbi əlaqələri) / Rauf İsmayılov. – Bakı: – 1982. – 66 s.*

[7] *Musayev İ. Azərbaycanın xarici siyasəti (XX əsr) Üç hissədə: I hissə. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2003,316 s.*

diqqət mərkəzində olmuşdur[8]. Bu araşdırmalarda Avropa İttifaqının Cənubi Qafqaz siyasətinin geosiyasi aspektləri tədqiqi olunmuşdur. Fransanın Qafqaz regionunda münaqişələrin tənzimlənməsində perspektiv fəaliyyəti həm ATƏT, həm də Avropa İttifaqı çərçivəsində araşdırılmışdır. Bu kontekstdə, R. Şahbazovun və R.İbrahimovun əsərlərində ayrıca Fransanın geosiyasi maraqları təhlil edilməmişdir[9].

Beləliklə, mövcud elmi ədəbiyyatın təhlili belə bir gerçəkliyi ortaya çıxarır ki, Fransanın Cənubi Qafqaz dövlətləri ilə ayrılıqda münasibətlərinin öyrənilməsinə həsr olunmuş araşdırmalar həm fransız, həm də öyrənilən ölkələrin alimləri tərəfindən aparılmışdır. Bu əsərlərdə Fransanın region ölkələri ilə qarşılıqlı münasibətlərinin tarixi, mövcud siyasi inkişaf istiqamətləri təhlil olunsa da, bu ölkənin Cənubi Qafqazda baş verən coğrafi-siyasi dəyişikliklərə münasibətdə siyasi maraqları və geosiyasi mövqeyi sistemli şəkildə vahid problem kimi öyrənilməmişdir.

**Tədqiqatın obyektini** Fransanın geosiyasi maraqlarının regional ölçülərinin, yəni Cənubi Qafqazda formalaşması prosesinin öyrənilməsi təşkil edir, **predmetini** isə, Fransanın Cənubi Qafqazda mövcud olan münaqişələrə münasibətdə apardığı siyasətin onun strateji mövqeyinin formalaşmasına təsirinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işinin məqsədi Fransanın Cənubi Qafqaz regionunda mövcud olan ərazi-sərhəd münaqişələrinə münasibətdə apardığı siyasəti təhlil etmək, bu siyasətin ziddiyyətlərini açıb göstərərək onun Fransanın regionda strateji rolunun və mövqeyinin formalaşmasına təsirini müəyyən etməkdən ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı tədqiqat vəzifələr müəyyən edilmiş və yerinə yetirilmişdir:

- Fransanın Cənubi Qafqazda geosiyasi maraqlarının formalaşmasının tarixini təhlil etmək;

[8] *Elif, A. Ermeni diasporasının Ermenistan iç politikası üzerine etkileri / A.Elif. Selçuk Üniversitesi. 2006, 201 s.*

[9] *İbrahimov R. Avrupa Birliyi Güney Kafkasiya devletleri ilişkileri. Ankara 2008 // kafkasya kuzey kafkasya cerkes cerkez çerkes çerkez kafkasya kuzey kafkasya cerkes cerkez çerkes çerkez kafkasya kuzey kafkasya cerkes cerkez çerkes çerkez (circassiancenter.com);*
*Şener, A. "NATO Neden Genişledi? Uluslararası İlişkiler Kuramları Işığında NATO'nun Genişlemesi ve ABD-Rusya İç Siyaseti", Uluslararası İlişkiler, Cilt 9, Sayı 34 (Yaz 2012), s. 73-97.*

- Fransanın Azərbaycan, Gürcüstan və Ermənistanla siyasi əlaqələrinin formalaşması və inkişafını müqayisəli şəkildə öyrənmək;
- Fransız geosiyasi nəzəriyyələrində milli maraqlara dair ideyaların təkamülünü izləmək və bu maraqların Cənubi Qafqazda gerçəkləşməsi imkanlarını təhlil etmək;
- Fransanın Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsində ziddiyyətli geosiyasi maraqlarını və oynadığı rolu tədqiq etmək;
- Gürcüstandakı daxili münaqişələrin həllində Fransanın səylərinin geosiyasi nəticələrini təhlil etmək;
- Cənubi Qafqazda münaqişələrin həllində Fransanın digər regional və qlobal aktorlar ilə öz geosiyasi maraqlarını uyğunlaşdırma siyasətini tədqiq etmək;
- Avropa İttifaqı çərçivəsində Cənubi Qafqazda əməkdaşlığın genişləndirilməsində və təhlükəsizliyin möhkəmləndirilməsində Fransanın rolunu öyrənmək;

**Tədqiqat metodları.** Tədqiqat işinin ümumi metodolji əsasını geosiyasi yanaşma təşkil edir. Geosiyasi yanaşma dedikdə coğrafi-siyasi amillərin qarşılıqlı təsirinin araşdırlması və konkret dövlətin strateji potensialının və gücünün öyrənilməsində qeyd olunan amilin rolu və təsiri nəzərdə tutulur. Bu kontekstdə geoiqtisadiyyat ayrıca bir istiqamətdir və burada coğrafi amillər əsas götürülmür[10].

Tədqiqatın aparılması zamanı siyasi və geosiyasi proseslərin təhlili məqsədilə nəzəri təhlil metodlarından, sistemli yanaşa əsasında analiz və sintez, induksiya və deduksiya kimi ümumməntiqi metodlardan, tarixi-müqayisəli təhlil, kontent-analiz və digər elmi araşdırma metodlarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işi çərçivəsində müdafiəyə çıxarılan əsas müddəalara aşağıdakılardır:

1. Fransız geosiyasi fikrinin təkamülü Cənubi Qafqaza münasibətdə müasir Fransa xarici siyasətinin ziddiyyətliyini şərtləndirir;
2. Fransa -Azərbaycan münasibətlərinin yaranması və inkişafı dinamik xarakter daşıyır;
3. Fransa-Ermənistan münasibətlərinin inkişafına erməni lobbisi

[10] *Дугин, А. Основы геополитики. Геополитическое будущее России. Мыслить пространством / А.Дугин. М.: – 2000, «АРКТОГЕЯ-центр», – 928 с.*

əhəmiyyətli dərəcədə təsir göstərir;

4. Fransanın Gürcüstan siyasəti regional altsistemdə böyük dövlətlər arasında qüvvələr nisbətinin dəyişməsinə yönəlib;
5. Fransanın regional siyasətinin ziddiyyətliyi onun regiona təsirini və regiondakı rolunu zəiflədir;
6. Fransanın işğalçı Ermənistanı dəstəkləməsi beynəlxalq hüquqa və həmsədr dövlət kimi üzərinə götürdüyü öhdəliklərə ziddir;
7. Avropa İttifaqı ilə Azərbaycan, Gürcüstan və Ermənistan arasında inkişaf edən pozitiv münasibətlər Cənubi Qafqazda sülhün möhkəmlənməsinə və regionun Avropaya inteqrasiyasına təkan verir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində əldə edilmiş elmi yeniliyi aşağıdakı müddəalarla ifadə etmək olar:

- Fransanın Cənubi Qafqazda digər regional və qlobal aktorlar ilə geosiyasi münasibətləri regionda münaqişələrin həlli kontekstində tədqiq olunmuşdur;
- Fransanın liberal mövqeyi ilə onun cənubi qafqaz siyasəti arasındakı ziddiyyətləri açılıb göstərilmiş, Fransanın insan haqlarını deyil, geosiyasi ambisiyalarını və erməni diasporasının maraqlarını rəhbər tutaraq siyasət apardığı müəyyən edilmişdir;
- Fransanın Avropa İttifaqı çərçivəsində region ölkələri ilə münasibətləri, əməkdaşlığın və sülhün möhkəmləndirilməsinə Aİ-nin təsiri geniş təhlil olunmuşdur;
- Fransanın regiona yanaşmasında ikili standartlar siyasətinin mövcud olması regionu tam əhatə edən və ölkənin milli maraqlarına cavab verən vahid və bərabər əsaslara söykənən geosiyasi yanaşmanın reallaşdırılmasına mane olduğu tədqiqat nəticəsində müəyyən edilmişdir;
- Müəyyən edilmişdir ki, Fransa ölkədaxili seçki faktoru ilə, daha doğrusu erməni icmasının həlledici təsiri ilə hesablaşmağa məcbur olduğu üçün Cənubi Qafqaz regionunda öz geosiyasi maraqlarını və sivilizasiya dəyərlərini qurban verir;
- Fransa Gürcüstan ərazisindəki coğrafi-siyasi dəyişiklikləri öz regional maraqlarına ciddi təhdid hesab edir. Bu dəyişikliklər Rusiyanı geosiyasi cəhətdən gücləndirir, ən başlıcası demokratiyanı məhdudlaşdırır;
- Fransanın Cənubi Qafqazda geosiyasi maraqlarının ziddiyyətliliyi

nəticədə onun regionda mövqeyinin zəifləməsinə səbəb olması açılıb göstərilmişdir;

- Bir sıra elmi ədəbiyyatlar ilk dəfə olaraq bu tədqiqat işində elmi dövriyyəyə gətirilərək problemin daha dərindən araşdırılmasında istifadə edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.**

Tədqiqat işində əldə olunan nəticələr problemlə bağlı gələcək araşdırmaların aparılması üçün zəmin ola bilər. Tədqiqat materialları, aparılan ümumiləşdirmələr və alınan nəticələr Fransa ilə Azərbaycan münasibətlərinin perspektiv inkişafı baxımından yeni siyasi kursun hazırlanmasında və həyata keçirilməsində, eləcə də proqnozların verilməsində faydalı ola bilər.

Dissertasiya materialları mövzu ilə bağlı dərsliklərin, dərs vəsaitlərinin, metodik vəsaitlərin, tədris proqramlarının, mühazirə mətnlərinin hazırlanmasında da istifadə oluna bilər.

**Aprobasiya və tətbiqi.** Dissertasiyada irəli sürülən əsas elmi müddəalar və nəticələr müəllifin Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan Azərbaycanda və xaricdə çap etdirdiyi elmi məqalələrdə, müxtəlif elmi-praktiki konfranslardakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutu.

**Dissertasiyanın strukturu, bölmələr üzrə və həcmi işarələrlə.** Tədqiqat işi giriş, iki fəsil, altı paraqraf, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Giriş – 17.850 işarə, I Fəsil -111.280 işarə, II Fəsil -136.067 işarə, Nəticə - 6539 işarə, 244 adda istifadə olunmuş ədəbiyyat siyahısı ilə birlikdə dissertasiyanın ümumi həcmi 270.317 işarə təşkil edir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiq olunan mövzunun aktuallığı əsaslandırılır, problemin elmi araşdırılma dərəcəsi təhlil edilir, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, həmçinin metodları müəyyənləşdirilir, müdafiəyə çıxarılan əsas müddəalar təqdim edilir, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti açıqlanır.

Dissertasiyanın I fəsli "**Fransanın Cənubi Qafqazda geosiyasi maraqlarının formalaşması və onun nəzəri əsasları**" adlanır.

Bu fəslin **"Fransız geosiyasi nəzəriyyələrində milli maraq anlayışının/konseptinin təkamülü və Cənubi Qafqaz"** adlanan birinci paraqrafında vurğulanır ki, Fransız geosiyasi nəzəriyyələrdə irəli sürülən müddəa və tezislər müasir dövrdə aktuallığını saxlayaraq ayrı-ayrı regionların, o cümlədən Cənubi Qafqazın geosiyasi və geoiqtisadi həyatında öz əksini tapmışdır. Fransız geosiyasi məktəbinin almanlardan və anqlosaksonlardan əsas fərqi onun daha çox humanist amillərə üstünlük verməsi və məkan amilini, məkanda genişlənməni zəruri siyasi qanunauğunluq kimi qəbul etməməsi olmasıdır. Fransız geosiyasi konsepsiyalarında demokratiya, suverenlik, insan haqları, hüquqi dövlət kimi ideyalar üstünlük təşkil edirdi. Ratselin dövlətin inkişafında məkan faktorunun rol oynaması fikrini tənqid edən Blanşın coğrafi tədqiqatlarının mərkəzində məkan, dövlətin coğrafi vəziyyəti deyil, insan dayanırdı. Blaş insanı coğrafi faktor kimi tədqiq edirdi. Blaşa görə dünya geosiyasi məkanının formalaşmasında kommunikasiyalar böyük rol oynayır. Blaş sərt coğrafi determinizm ideyasından imtina edərək birinci yerə coğrafi və ərazi amillərini deyil, insanın təşəbbüsünü və azadlığını qoyurdu. Bütövlükdə, Blaş və digər fransız nəzəriyyəçilərinin diqqət mərkəzində liberal xalqlararası münasibətlər dururdu.Fransız geosiyasətçilərinin qənaətinə görə dövlətlər arasında münaqişələri onlar arasında liberal münasibətlər və ittifaq yaratmaqla aradan qaldırmaq olar.

**"Fransa – Azərbaycan əlaqələrinin təşəkkülü və inkişafı"** adlanan ikinci paraqrafda Fransa-Azərbaycan əlaqələrinin təşəkkülü mərhələləri təhlil edilmiş, 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu istiqamətdə münasibətlərin yeni mərhələsinin başlanıldığı göstərilmişdi. Azərbaycan Respublikasının xarici siyasəti, ilk növbədə, dövlət müstəqilliyinin

möhkəmləndirilməsi işinə xidmət edirdi. Azərbaycan mədəniyyəti tarixən dünyanın qabaqcıl dövlətlərinin, o cümlədən Fransanın diqqət mərkəzində olmuşdur.

XVII əsrin sonlarından başlayaraq Nizami Gəncəvi yaradıcılığı fransız mütəxəssisləri tədqiqat obyektinə çevrildi. Qeyd edək ki, 1771-ci ildə Nizami Gəncəvinin əsərlərinin ilk tərcümə edən nizamişünas Klerambol olsa da, N.Gəncəvi və poemaları haqqında fransız oxuculara ilk öncə hələ 1697-ci ildə D'Erblonun Parisdə çap olunmuş "Şərq kitabxanası" əsərində məlumat verilmişdir.

XIX əsrin əvvəllərində Azərbaycan-Fransa mədəni əlaqələrinin inkişafında yeni mərhələ başladı. 1835-ci ildə Varşava şəhərində İsmayıl bəy Qutqaşınlının fransızca yazdığı Rəşid bəy və Səadət xanım povesti ayrıca kitab halında çap olunmuşdur.[11] Belə ki, Fransız dili və ədəbiyyatı ilə maraqlanan Azərbaycan ədibləri öz əsərlərində əsasən "avropasayağı" həyat tərzini təbliğ etməyə cəhd edirdilər. XIX əsrin 50-ci illərindən başlayaraq Azərbaycan ədəbiyyatı M. F.Axundovun əsərlərinin fransız dilinə tərcümələrinin Fransada dövrü mətbuatda nəşri fransız ictimaiyyətində Azərbaycan dilinə, ədəbiyyatına qarşı maraq oyatdı.

1858-ci ildə Aleksandr Dümanın Tiflisdə çapdan çıxan əsərində "Qafqaz xatirələri" adlı əsərində yazıçı Şamaxı haqqında yazırdı: "Şamaxı Şirvanın paytaxtı idi. Buna görə də, xanına milyonlarla gəlir gətirən zəngin bir xanlıq idi. Onun on min əvəzinə yüz min əhalisi var idi."[12] Henri Binder öz əsərində "Bakını neft quyusu"[13] adlandırırdı.

1967-ci ildə Azərbaycan mətbuatına və ədəbiyyatına daha obyektiv münasibət bəsləyən Paris Şərq Dilləri İnstitutunda təhsil almış fransız Lui Bazen YUNESKO-nun qərarı ilə M.F.Axundovun komediyalarını kitab halında çap etdirməklə Azərbaycan- Fransa ədəbi əlaqələrinə öz dəyərli töhfəsini vermişdir.

Azərbaycan Xalq Cumhuriyyəti dövründə Fransa-Azərbaycan münasibətləri daha da inkişaf etmişdi. AXC-nin Paris sülh konfransında qazanmış olduğu diplomatik qələbənin nəticəsi olaraq Fransanın Bakıda nümayəndəliyi açılmış, Fransa hökumətinin bu addımına Azərbaycanın

---

[11] *İsmayılov, R. "Dostluq telləri" (Fransa-Azərbaycan ədəbi əlaqələri) / Rauf İsmayılov. – Bakı: – 1982. – s.35*

[12] *ALEXANDRE DUMAS, "Le Caucase impressions de voyage" / Montréal- –2006, – 305*

[13] *BİNDER H., "AU KURDİSTAN" EN MÉSOPOTQMIE ET EN PERSE, PARIS-1887. P. 443*

coğrafi-siyasi mövqeyi və zəngin təbii sərvətlərə malik olması öz təsirini göstərmişdir. Fransa rəsmi dairələrində vurğulanırdı: "Heç bir rayon Bakı nefti ilə əvəz edilə bilməz. Azərbaycanda yerləşən Bakı neft hövzəsindəki qədər dünyanın heç bir yerində, hətta, Meksikada da neft çıxarılmır. Bu rayonda neft ehtiyatları tükənməz dərəcədə böyükdür. Ona görə də bizim fəaliyyətimizin əsas mərkəzi məhz Bakı olmalıdır."[14]

Azərbaycanın Rusiyanın XI Qırmızı Ordusu tərəfindən zəbt olunması AXC-nin süqutuna səbəb oldu. Paris sülh konfransında iştirak edən bir neçə azərbaycanlı- Ə.M.Topçubaşov, M.Məhərrəmov, Ə.A.Şeyxülislamov və C.Hacıbəyli və digərləri Fransada mühacir olaraq qalmalı oldular. Fransada mühacirətdə olan azərbaycanlılar mədəni əlaqələrin inkişaf etməsinə ciddi təşəbbüs göstərərək, ölkədə Azərbaycan mədəniyyətini tanıtmağa səy göstərirdilər.

SSRİ-nin süqutu nəticəsində Azərbaycan yenidən özünün dövlət müstəqilliyini bərpa etməsi Fransa ilə Azərbaycan arasında münasibətlərdə yeni mərhələnin və istiqamətin əsasını qoydu.

Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında 1992-ci ildən qurularaq ulu öndər Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra yeni mərhələdə əlaqələr bütün istiqamətlərdə genişlənərək davamlı xarakter almış, 1993-cü il dekabrın 12-də Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında dostluq, anlaşma və əməkdaşlıq haqqında müqavilə imzalanmışdır.

Azərbaycan-Fransa mədəni əlaqələrinin inkişafında, Azərbaycanın milli-mənəvi dəyərlərinin dünyaya çatdırılmasında Azərbaycanın Heydər Əliyev Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri, birinci xanım Mehriban Əliyeva müstəsna rol oynayır. Heydər Əliyev Fondu Fransada, Versalda iki abidənin, Strasburqda XV əsrə aid katedralın beş vitrininin bərpasında, Luvr muzeyində İslam İncəsənət Departamentinin yaradılmasında mühüm rol oynadı. Mehriban Əliyeva Azərbaycan- Fransa ikitərəfli əlaqələrin inkişafındakı xidmətlərinə görə Fransanın ən yüksək mükafatı olan Fəxri legion ordeninə layiq görüldü.

2018-ci il iyulun 19-20 də Azərbaycan prezidenti İlham Əliyevin Fransaya səfəri çərçivəsində Parisdə Fransanın böyük transmilli şirkətləri ilə əməkdaşlıq haqqında imzalanan sazişlər çox qısa zaman kəsiyində reallaşdı.

---

[14] *ARDA, f. 28, siy.1,iş 175. v.23.*

Neft-qaz sektorunda mühüm şirkətlərdən olan Fransanın Total şirkəti Azərbaycanda fəaliyyət göstərən ilk xarici enerji şirkətlərindən biridir. Müasir dövrdə, Azərbaycan Respublikasının həyata keçirdiyi uğurlu siayasəti ölkəmizin beynəlxalq arenada etibarlı tərəfdaş və investisiya qoyuluşu üçün güvənilir ölkə kimi qəbul edilməsinə şərait yaradır. Bunun nəticəsidir ki, iki ölkə arasında qeydə alınan iqtisadi göstəricilər Azərbaycanın Fransanın Cənubi Qafqazda birinci iqtisadi tərəfdaşı olduğunu təsdiqləyir.

**"Fransanın Ermənistan və Gürcüstanla əlaqələrinin formalaşması və təkamülü"** adlı üçüncü paraqrafda Fransanın Ermənistan və Gürcüstanla əlaqələrinin formalaşması və təkamülü təhlil edilir.

Tədqiq edilən illərdə fransızlarla ermənilər arasında münasibətlər daha da inkişaf etmiş, xalqlararası əlaqələr genişlənmişdir. Fransa ermənilər üçün ən cəlbedici ölkə idi.

Təqdiqatda, Fransa ilə Ermənistan arasında geniş tarixən formalaşmış geniş əlaqələrin mövcud olması, erməni ittifaqları yaranması və güclü erməni diasporasının formalaşması təqdim edilmiş, Avropada ən böyük erməni icmasının məhz Fransada formalaşdığı göstərilmişdir.

Fransanın Ermənistanla diplomatik münasibətləri 1992-ci ildə qurulmuş, 1993-cü il martın 12-də isə Fransa Respublikası ilə Ermənistan Respublikası arasındakı anlaşma, dostluq və əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. 1995-ci ildə isə Fransa Respublikası Hökuməti və Ermənistan Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş və mədəni, elmi və texniki əməkdaşlıq haqqında hökümətlərarası razılaşma imzalandı.

2012-ci ildən Ermənistanda fəaliyyət göstərən Fransa İnkişaf Agentliyi suveren və qeyri-suveren kreditlər şəklində, əsasən kənd təsərrüfatı və ərazi inkişafı, enerji səmərəliliyi, infrastruktur sektorlarında layihələri maliyyələşdirir. Bununla belə, müasir dövrdə, Fransa Ermənistan arasında ikitərəfli ticarət əlaqələrində azalma müşahidə olunur.

Fransa- Gürcüstan tarixi  və mədəni əlaqələrinin tarixi haqqında ilk yazılı qeydlər IX əsrə aiddir. IX-X əsrə aid gürcü yazılı abidələrində fransızlar haqqında məlumata rast gəlinir. IV Qurucu Davidin (1089-1125) tarixçisi fransızlar və Fransa haqqında öz əsərlərində qeyd edir. XII əsrdə gürcü yazıçısı Şota Rustavelli "Pələng dərisi geyinmiş pəhləvan" əsərində fransızlar haqqında  yazır.

1918-ci ildə Gürcüstan Demokratik Respublikası (GDR) yaranan zaman onun diplomatik münasibətlər yaratdığı ölkələrdən biri də Fransa idi. Antanta Gürcüstanı axırıncı antisovet dayaq nöqtəsi kimi öz təsir dairəsində saxlamağa çalışırdı. SSRİ-nin tərkibində olan zaman Gürcüstan Qərbi Avropa dövlətləri ilə əlaqələr yaratmaqdan məhrum olunmuşdu.

Gürcüstan 1991-ci ilin aprelində özünün müstəqilliyini elan etdi. Gürcüstan dövlət müstəqilliyini bərpa etdikdən sonra Fransa ilə münasibətlər yeni mərhələdə və müxtəlif istiqamətlərdə inkişaf etməyə başladı. 1992-ci il avqustun 21-də Fransa Gürcüstan Respublikasını tanıdı və 1993-cü il martın 18-də Fransa Gürcüstanın paytaxtı Tbilisidə öz səfirliyini açdı.1994-cü il 21 yanvar tarixli müqavilə hərbi, iqtisadi, mədəni, parlament, ətraf mühit, məhkəmə, konsulluq və humanitar sahələrdə fransız gürcü əməkdaşlığının inkişafını təşviq edir[15]. 1997-ci fevralın 2-də Fransa Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında "İnvestisiyaların qarşılıqlı təşviqi və müdafiəsi" haqqında Saziş imzalandı.[16] 1997-ci il fevralın 3-də Fransa və Gürcüstan arasında mədəni, elm və texniki sahələrdə əməkdaşlıq haqqında Saziş imzalanmış, 1999-cu il iyun ayının 1-də qüvvəyə minmişdir[17].

2016-cı ildə Fransa Prezidenti Fransua Hollandın Gürcüstana səfəri nəticəsində Tbilisidə təsis edilən Fransa İnkişaf Agentliyi yeni əməkdaşlıq proqramı vasitəsilə Gürcüstanın inkişaf layihələrinə dəstəyini təzələmək üçün 2024-cü ilə qədər Gürcüstana kreditlər, texniki yardımlar və qrantlar şəklində təxminən 483 milyon[18] avro səfərbər etməyi planlaşdırır".

---

[15] *COMMISSION DES AFFAIRES ETRANGERES RAPPORT 453 (97-98) // // https://www.senat.fr/rap/l97-453/l97-453_mono.html*

[16] *Accord entre le gouvernement de la République française et le gouvernement de Géorgie sur l'encouragement et la protection réciproques des investissements https://www.legifrance.gouv.fr/jorf/id/JORFTEXT000000384404 1 dekabr 1999-cu il tarixli, 99-980 saylı qanun*

[17] *Décret n° 99-530 du 25 juin 1999 portant publication de l'accord de coopération culturelle, scientifique et technique entre le Gouvernement de la République française et le Gouvernement de Géorgie, signé à Paris le 3 février 1997 27/06/1999 tarixli fərmanla*

*18 La France renouvelle son soutien aux projets de développement de la Géorgie à travers un nouveau programme de coopération pour 2021-2023// https://ge.ambafrance.org/La-France-renouvelle-son-soutien-aux-projets-de-developpement-de-la-Georgie-a / 25/06/2021*

2020-ci ildə Gürcüstan və Fransa arasında ticarət dövriyyəsi 195 milyon avro təşkil edib. 2021-ci ilin ilk dörd ayı ərzində Fransa ilə Gürcüstan arasında ticarət dövriyyəsi 74,9 milyon avro təşkil edib ki, bu da 2020-ci ilin ilk dörd ayı ilə müqayisədə 19,2% artıb[19].

Dissertasiyanın ikinci fəsli **"Fransanın Cənubi Qafqazda ərazi-sərhəd dəyişikliklərinə səbəb olan münaqişələrin həllində geosiyasi maraqları**" adlanır.

Bu fəslin ilk "**Fransanın Gürcüstanda daxili münaqişələrin həllində iştirak siyasəti və onun geosiyasi nəticələri**" paraqrafında Cənubi Qafqazın separatçılıq problemi ilə üzləşən ölkələrindən biri olan Gürcüstanda münaqişələrə münasibətdə Fransanın geosiyasi maraqları təhlil edilir. Rusiya ilə Gürcüstan arasında Cənubi Osetiya üstündə 2008-ci ildə baş verən müharibə bütün dünyada böyük gərginlik yaratdı. Döyüş qarşısında Amerika Birləşmiş Ştatları və NATO, bir sıra tərəfdaşlıq əlaqələrinə sahib olmalarına baxmayaraq, Gürcüstanı hərbi baxımdan Rusiyaya qarşı qoruyacaq qanuni bir mexanizmə sahib deyildilər. Avropa Birliyi Gürcüstanda baş verən 2008-ci il hadisələri zamanı ən əhəmiyyətli aktor olaraq meydana çıxmasına baxmayaraq, Almaniya, Fransa, İtaliya və İspaniya kimi əsas birlik üzvlərinin Rusiya ilə əhəmiyyətli iqtisadi əlaqələrə sahib olmaları bu ölkəyə qarşı sərt tədbirlər alınmasına maneə törətdi. Fransanın Avropa İttifaqı və NATO-nun əsas üzvü kimi Gürcüstan daxili münaqişələrdəki fəaliyyətinə, bu təşkilatlar çərçivəsində mövqeyinə və digər üzvlərin məsələyə münasibəti ilə nəzər salmaq zəruridir.

Avropa ittifaqına sədrlik edən Fransanın 2008-ci ildə Cənubi Osetiya üstündə müharibəyə müdaxiləsinə münasibətdə Gürcüstan və beynəlxalq aləmdə iki cür qiymətləndirmə var. Bir qrup düşünürlər ki, Fransa prezidenti Nikola Sarkozi bu müharibədə atəşkəsə nail olmaq üçün həqiqətən əlverişli şərait yaratdı. Onların hərəkəti rus ordusunun Gürcüstanın paytaxtına hücumuna mane oldu, Moskvanı Cənubi Osetiya və Abxaziya ərazilərindən geri çəkilməyə məcbur etdi. Digər qrup isə, rus ordusunun Fransanın müdaxiləsindən əvvəl Tiflisə doğru irəliləməsini dayandırdığı və Nikola Sarkozinin vasitəçiliyinin rusların öz hərbi qazancını siyasi qazanca çevirmələrinə imkan verdiyi

---

[19] *GÉORGIER relations bilatérales https://www.tresor.economie.gouv.fr/Pays/GE/relations-bilaterales*

fikrindədirlər.

Fəslin növbəti "**Ermənistan- Azərbaycan münaqişəsi və Fransanın ziddiyyətli geosiyasi fəaliyyəti**" adlanan ikinci yarımfəsildə XX əsrin 80-ci illəri- XXI əsrin əvvəllərində erməni diasporasının kilsə, siyasi partiyalar, fərqli təşkilatlar və digər bu kimi institutlar əsasında öz strukturlarını formalaşdırması və Fransa Respublikasının siyasi həyatında fəal rol oynaması Fransadakı erməni diasporasının inkişafının göstəricisi kimi təhlil edilir.

Fransadakı erməni diasporunun Fransanın siyasi strukturlarına təsiri mexanizmi olduqca mürəkkəb quruluşa malikdir. Fransada ermənilərin səs vermək hüququnun olması, erməni mediasının kifayət qədər geniş imkanları və ictimai fikrə təsir göstərmək iqtidarındadılar. Bunların içərisində ən çox təsir imkanına malik olanlardan biri də seçki kompaniyalarında iştirakdır. Eyni zamanda, prezidentin ətrafında mühüm vəzifələrə malik olan erməni əsilli dövlət qulluqçuları da Fransanın mühüm qərarlar qəbul etməsində yaxından iştirak edir və onlar buna öz təsirlərini göstərirlər[20].

Müasir dövrdə Fransa ilə Ermənistan arasında münasibətlərin daha da yaxınlaşması Fransada xarici siyasət sahəsində müəyyən qərarların qəbul edilməsində erməni diasporasının təsirinin güclənməsi faktı ilə də bağlıdır. Bütün qeyd olunanlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə də öz mənfi təsirini göstərmişdir.

Ermənilər hələ münaqişə başlamamışdan əvvəl beynəlxalq ictimaiyyətin dəstəyini qazanmaq üçün ciddi kampaniya aparırdılar. Burada erməni lobbisinin imkanlarından da geniş istifadə edilirdi. Fransa senatı ilə bu ölkədəki erməni lobbisi arasında çox yaxın münasibətlər mövcud idi. 1992-ci il martın ayının 2-də Birləşmiş Millətlər Təşkilatına Azərbaycan Respublikası tam hüquqlu üzv oldu. Beləliklə, BMT tərəfindən Dağlıq Qarabağ ərazisi Azərbaycanın tərkib hissəsi kimi tanındı. Fransanın da daimi üzvləri sırasında olduğu BMT Təhlükəsizlik Şurası Azərbaycan ərazilərinin ermənilər tərəfindən işğalı ilə əlaqədar 1993-cü ildə 822, 853, 874, 884 saylı qətnamələrdə ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı dəstəklənmiş, ərazi ələ keçirilməsi üçün güc tətbiq olunmasının yolverilməzliyi təsdiq edilmiş və işğalçı qüvvələrin dərhal, tam və qeyd-şərtsiz

---

[20] *Армяне Франции // http://ia-centr.ru/expert/8941/ 15.09.2010*

Azərbaycan Respublikasının ərazilərindən çıxarılması tələb edilmişdir.[21]

2001-ci ilin yanvar ayından başlayaraq Fransa prezidenti Jak Şirakın təşəbbüsü ilə Azərbaycan və Ermənistan dövlət başçıları arasında görüşlərin təşkil edilməsi ilə danışıqların növbəti mərhələsi başlansa da Ermənistanın qeyri-konstruktiv mövqeyi səbəbindən heç bir nəticə əldə olunmadı.

2020-ci il sentyabrın 27-də Ermənistanın hücumuna cavab olaraq başlayan Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə başa çatdı. Müharibə dövründə ATƏT-in Minsk qrupunun həmsədri olan, münaqişə tərəflərinə tarazlı mövqedən yanaşmayan və öz mandatına uyğun gəlməyən bəyanatlar verən Fransa təcavüzkarı, separatizmi dəstəkləməyə çalışdı. İstər müharibə dövründə, istərsə də post münaqişə dövründə Fransa tərəfindən Azərbaycanın siyasi iradəsinə təsir etmək cəhdləri nəticəsiz qaldı.

Fransa Minsk qrupunun həmsədri kimi Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasına cəhdlər göstərsə də, onun ermənipərəst mövqeyi, erməni separatçılarını himayə etməsi status-kvonun saxlanmasına rəvac vermişdir. ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən olan Fransanın münaqişə tərəflərinə eyni məsafədən yanaşmaması, təcavüzkarı dəstəkləyən bəyanatlar səsləndirməsi, onun ATƏT-in Minsk qrupunun həmsədrliyindən uzaqlaşdırılması ilə bağlı Azərbaycan ictimaiyyəti tərəfindən əsaslı və haqlı təkliflər irəli sürülməsinə səbəb oldu. Fransa prezidentlərinin regiona səfərləri nəticəsində Ermənistanın öz işğalçılıq siyasətini davam etməsi bu fikri bir daha təsdiq edir və Fransanın ATƏT-in Minsk qrupunun həmsədr kimi fəaliyyətini davam etdirməsini yol verilməz edir.

Bir sözlə, Fransanın istər müharibə dövründə, istərsə də post münaqişə dövründə Azərbaycanın siyasi iradəsinə təsir etmək cəhdləri nəticəsiz qaldı.

**“Fransanın Avropa İttifaqı çərçivəsində Cənubi Qafqaz ölkələri ilə əməkdaşlığın inkişaf etdirilməsində iştirakı”** adlı üçüncü fəsildə Avropa İttifaqı, eləcə də Fransa ilə münasibətlər Cənubi Qafqaz dövlətləri üçün siyasi, iqtisadi, sosial və mədəni baxımdan da

---

[21] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası «Azərbaycan diplomatiyası» Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi https://files.preslib.az/projects/azdiplomacy/a2_4.pdf (səh.8)

əhəmiyyət kəsb etdiyi vurğulanır.

Fransanın Cənubi Qafqazda perspektiv geosiyasi maraqları Aİ-nin ümumi xarici siyasət və təhlükəsizlik siyasəti prizmasında formalaşmışdır. Cənubi Qafqazda ərazi-sərhəd münaqişələrinin baş verməsi Avropa İttifaqının bu subregiona münasibətdə siyasətinin formalaşmasına təsir etmişdir. Avropa İttifaqı, eləcə də Fransa ilə münasibətlərdə Cənubi Qafqazda regional təhlükəsizliyin təmini, enerji sahəsində əməkdaşlıq və Mərkəzi Asiya ölkələri ilə Avropa dövlətləri arasında əlaqələrin qurulması və inkişafında Azərbaycanın rolu böyükdür.

Avropa Cənubi Qafqaz dövlətləri ilə münasibətlərin hüquqi əsasını Avropa İttifaqı Azərbaycan, Gürcüstan və Ermənistanla 1996-cı il aprelin 22-də imzalanan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi təşkil edir. Saziş 1999-cu il iyulun 1-də qüvvəyə mindi. Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin ən mühüm xüsusiyyəti bu sənədin yalnız Avropa Komissiyası ilə Cənubi Qafqaz dövlətləri arasında deyil, eyni zamanda Avropa İttifaqına üzv olan ölkələrlə ikitərəfli şəkildə imzalanması idi. Sazişlə eyni zamanda Avropa İttifaqına üzv dövlətlərin, o cümlədən Fransanın Cənubi Qafqaz dövlətləri ilə tərəfdaşlıq münasibətlərinin əsası qoyulmuşdur. Bu sənəddə Cənubi Qafqaz dövlətlərinin beynəlxalq hüquq prinsiplərini nəzərə alaraq mehriban, sabit və təhlükəsizlik şəraitində yaşaması, bazar iqtisadiyyatına keçid, Avropa İttifaqına üzv dövlətlərlə siyasi dialoqun aparılması mexanizmləri göstərilmişdir. 1999-cu ildə sazişin qüvvəyə minməsindən sonra Avropa İttifaqı ilə Cənubi Qafqaz dövlətləri ararsında münasibətlər yeni mərhələyə qədəm qoydu. Həmin tarixdə keçirilən "Qafqaz zirvəsi"ndə Avropa İttifaqı Cənubi Qafqazda sülhü və təhlükəsizliyi gücləndirmək məqsədilə regional əməkdaşlığın inkişafını dəstəkləyəcəyini bəyan etdi. Lakin, Aİ-ı Cənubi Qafqazda regional əməkdaşlığa maneə olan ərazi-sərhəd və etnik zəmində baş verən münaqişələrin həll edilməsində mühüm rol oynaya bilmədi. Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi çərçivəsində Avropa İttifaqı hər üç dövlətin ərazi bütövlüyünü tanısa da, münaqişələrin həllində ATƏT-in qərarlarını dəstəklədiyini bəyan edirdi

Cənubi Qafqaz regionunda Ermənistan-Azərbaycan arasında baş verən 44 günlük Vətən müharibədən sonrakı dövr üçün Avropa İttifaqının region ölkələri ilə əməkdaşlıq imkanları artmışdır.

Postmüharibə dövründə Avropa İttifaqının beynəlxalq təcrübəsindən işğaldan azad olunan ərazilərin yenidən qurulmasında istifadə olunması perespektivləri genişlənib.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqata yekun vurulmuş, ümumiləşdirmələr əsasında nəzəri və praktiki əhəmiyyət kəsb edən tövsiyyələr irəli sürülmüşdür. Müəllif belə nəticəyə gəlmişdir ki, fransız geosiyasi nəzəfriyyəçilərinin irəli sürdüyü müddəalar, fikir və ideyalar müasir Fransanın xarici siyasətində, xüsusilə Cənubi Qafqaza münasibətdə öz praktik təsdiqini tapmır. Fransanın regiona yanaşmasında ikili standartlar siyasətinin mövcud olması regionu tam əhatə edən və ölkənin milli maraqlarına cavab verən vahid və bərabər əsaslara söykənən geosiyasi yanaşmanın reallaşdırılmasına mane olmuşdur.

**Dissertasiyanın məzmunu müəllifin aşağıdakı çap olunmuş məqalələrində öz əksini tapmışdır.**


1. Avropa İttifaqı çərçivəsində Fransanın Gürcüstan daxili münaqişənin tənzimlənməsində rolu// “GEO STRATEGİYA” “Kaspi” geosiyasi araşdırmalar mərkəzi. iyul-avqust, 2017, №04 (40), s.65-68 (0.5 ç.v.)
2. Роль Франции в установлении мира на Южном Кавказе (в контексте Армяно-Азербайджанского, Нагорно-Карабахского конфликта) // “GRANI” scientific and theoretical almanac. Dnipropetrovsk National University named after Oles Gonchar; Dnipropetrovsk Regional Institute for Public Administration, National Academy for Public Administration under the President of Ukraine; Center for Social and Political Studies. Dnipro, Ukraine. 2018, TOM 21 №3, s.108-115 (1 ç.v.)
3. Rusiya-Gürcüstan münaqişəsindən sonra Fransanın vasitəçilik missiyası // “GƏNC TƏDQİQATÇI” elmi-praktik jurnal, AMEA Gənc Alim və Mütəxəssislər Şurası. 2018, IV cild, №1, s.289-296 (1 ç.v.)
4. Fransanın Avropa İttifaqı Çərçivəsində Cənubi Qafqaz Ölkələri İlə Əməkdaşlığın İnkişaf Etdirilməsində İştirakı (1990-cı illər və 2000-ci illərin əvvəlləri) // “Sivilizasiya” elmi-nəzəri jurnal, Bakı Avrasiya Universiteti, Bakı. 2018, cild 7, №1 (37), s.180-185 (0.75 ç.v.)
5. Fransa-Azərbaycan əlaqələrinin tarixi // “Sivilizasiya” elmi-nəzəri jurnal, Bakı Avrasiya Universiteti, Bakı, 2018, cild 7, № 2 (38), s.68-75 (0.5 ç.v.)
6. 1918-21-ci illərdə Fransa-Gürcüstan əlaqələri //“Tarix və onun

problemləri”, Bakı. 2018, N 2, s.234-238 (0.6 ç.v.)

7. The South Caucasus In The Context Of French Geopolitical Theories // “Innovation and Entrepreneurship” Thomson Reuters Ajax Publishing, Montreal, Canada: 15.02. 2020, s.194-197 (0.5 ç.v.)
8. Fransız geosiyasətinin nəzəri əsasları // “Gənc tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı”, Azərbaycan, Bakı: 25-26 aprel 2013, s.174
9. Fransanın Dağlıq Qarabağ münaqişəsində vasitəçilik missiyası // “Heydər Əliyevin milli dövlətçilik və milli inkişaf strategiyası”. Beynəlxalq elmi-praktik konfrans. Bakı: 8 iyun 2013, s.387-394 (1 ç.v.)
10. AXC-nin Fransa ilə təhsil və humanitar sahədə əlaqələrinin bəzi aspektləri // “Azərbaycan xalq cümhuriyyəti təşəkkülü, fəaliyyəti, tarixi əhəmiyyəti”. Respublika elmi konfransı. Sumqayıt: 26-27 aprel, 2018, s.273-275 (0.375 ç.v.)
11. Fransanın Cənubi Qafqaz siyasətinin bəzi aspektləri // “Gənc Tədqiqatçıların II Beynəlxalq Elmi Konfransı”, Azərbaycan, Bakı: 27-28 aprel 2018, s.854-857 (0.5 ç.v.)
12. Azərbaycan-Fransa Münasibətləri (1918-1920) // “Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr”, mövzusunda Beynəlxalq elmi konfrans, Bakı: 23-24 may 2018, 2-ci kitab, s.156-161 (0.75 ç.v.)
13. Fransanin Cənubi Qafqaz siyasəti // “Qafqaz böyük sarsıntılar şəraitində: tarixi təcrübə, müasir dövr və perspektivlər”. Respublika elmi konfransı. Bakı: 04 dekabr 2018, s.78-79 (0.25 ç.v.)
14. Azərbaycan-Fransa əlaqələrinin inkişafinda Ulu öndər Heydər Əliyevin rolu // “Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası”. I Beynəlxalq elmi konfrans. Bakı: 9 aprel-5 may 2018, s.289-290
15. Azerbaijani-French Relations At The Beginning Of A New Stage Of Development (Economic Aspect) // The 6th International scientific and practical conference “Scientific achievements of modern society” Cognum Publishing House, Liverpool, United Kingdom: 5-7 February 2020, s.275-280 (0.75 ç.v.)

Dissertasiyanın müdafiəsi “28” yanvar 2022-ci il saat 14:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD.2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küçəsi, 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “27” dekabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 27.11.2021. Kağızın formatı: 60x84 1/16.
Sifariş 014/12. Həcmi 1 ç.v. (36781 işarə)
Ofset kağızı Xerox C klass. Tiraj 100.